RAQİF NAZİMOĞLU



# AĞLA, XOCALIM, AĞLA!

84(Az)-5
N 29

Raqif NAZİMOĞLU

# AĞLA, XOCALIM, AĞLA!

2015 - 10 kel

Bakı
©"Araz"-2006

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 29159

29159

Raqif Nazimoğlu "Ağla, Xocalım, ağla" (şerlər)
Bakı, "Araz" nəşriyyatı 2006, 54 səh.

*Şair-publisist Raqif Nazimoğlunun "Ağla, Xocalım, ağla!" şerlər kitabı orta məktəb şagirdləri, kiçik yaşlı uşaqlar üçün nəzərdə tutulub. Bu kitabda müəllifin son illərdə Qarabağın işğal altında olan torpaqları, milli faciələrimiz, qanlı olaylarla bağlı şerləri toplanıb. İnanırıq ki, məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsini gücləndirmək, torpağa, Vətənə sevgi hisslərini artırmaq məqsədilə yazılmış bu kitab hər bir şagirdin stolüstü kitabına çevriləcək*

R $\frac{4974655134}{050-2006}$ sifarişlə

©"Araz", 2006

F. Köçərli adına
Azərbaycan DƏ... Uşaq
KİTABXANASI
İNV. №



## *UNUTMAYAQ*

***20 Yanvar 1990-cı il tarixli Bakı qırğını zamanı 133 nəfər vəhşicəsinə öldürüldü, 744 nəfər yaralandı, 841 nəfər həbs edildi. İtgin düşənlərin taleyi isə bü günə kimə məlum deyil. Yanvarın 19-dan 20-ə keçən gecə 403 nəfər uşaq dünyaya gəldi, doğum zamanı 68 uşaq, 19 ana, 23-nə dək olan dövrdə isə doğulanlardan daha 96-sı dünyasını dəyişdi.***

***20 Yanvar gecəsi 3281 nəfər qorxudan həyəcan keçirmiş, lal, kar və kor vəziyyətinə düşmüşdür.***

***

***26 Fevral 1992-ci il yaddaşlarda Xocalı faciəsi kimi qaldı. Bu, soyqrım hadisəsi idi. Həmin gün Xankəndində yerləşən rus hərbi hissələrinin, xüsusilə 366-cı alayın iştirakı ilə Ermənistanın hərbi birləşmələri misli görünməmiş faciə törətdilər. Xocalı şəhəri xarabalığa çevrildi:***

***613 nəfər qoca, uşaq, qadın qətlə yetrildi, 487 nəfər əlil oldu. 1257 nəfər dinc sakin girov götürüldü.***

# Ön söz

***Bərəkətli, məhsuldar torpaqları olan Azərbaycan yeraltı, yerüstü təbii sərvətləri ilə yanaşı ən böyük sərvəti sayılan insanları ilə də diqqəti çəkir, daha yüksək zirvədə durur. Özümüzə ana Vətən hesab etdiyimiz bu məmləkətin əvəzedilməz, ən dəyərli sərvəti isə uşaqlardır. Ölkəmizdə dəyərli, qiymətli nə varsa, hamısı uşaqlar, onların firavan həyatı üçündür.***

Dünyanı uşaq nəğmələri, sevinc dolu qığıltıları başına götürəndə necə də gözəl olur. Başlarının üstündə sülh göyərçinləri dolaşan bu fidanların hərəsinin öz könül dünyası, zəngin mənəvi aləmi var. Bu maraqlı, ecazkar dünyaya girmək vallah hər oğulun, hər qızın işi deyil. Bu gün tam fəxrlə və əminliklə deyə bilərəm ki, həmin işin öhdəsindən şair dostumuz, istedadlı söz ustası Raqif Nazimoğlu gəlib. Raqif müəllim uşaqların dostu olmaq, onların tərbiyəçisi olmaq, vətənpərvərlik işində söz komandanı olmaq kimi şərəfli missiyanı öz üzərinə götürüb və deyərdim ki, belə məsuliyyət yükünü layiqincə çəkib.





Bildiyimiz kimi, müstəqil yurdumuzun sabahı işıqlı dünyamızın aparıcı qüvvəsi olan balaca fidanlardan çox asılıdır. Məhz onlar XXI əsr Azərbaycanın azad, müstəqil vətəndaşı kimi, yurdumuzun daha da çiçəklənməsi işinə xidmət edəcəklər. Bu işin də bünövrəsi onların bilik və savadına, tərbiyəsinə çıraq tutan məktəbdən, onları gələcəyə inamla aparan müəllimlərdən, vətənpərvərlik tərbiyəsinin əsasını qoyan öyrətmənlərdən, ən əsası isə özlərindən çox asılıdır. Raqif Nazimoğlu bu məsələləri görüb duyaraq onu sözə, misraya çevirib. Onu deyə bilərəm ki, müstəqillik illərinin məhsulu olan çağdaş Azərbaycan ədəbiyyatında, xüsusilə uşaq ədəbiyyatında uşaqların vətənpərvərlik tərbiyəsində başlıca rol oynayacaq bu kitab maraq baxımından çox dəyərli və əhəmiyyətli əsərdir. Sözün məsuliyyətini hər şeydən üstün tutan müəllif balalarımızın heyrətamiz düşüncələrini, vətən, torpaq, qeyrət, qəhrəmanlıq haqqında fikirlərini cəmləşdirib onların dünyalarını, arzu və istəklərini öz əlvanlığı ilə canlandırmağa, oxucu auditoriyasına çatdırmağa çalışıb.

R.Nazimoğlu "Ağla, Xocalım, ağla" adlı bu kitabında uşaqların da haqq səsini, hüquqlarının müda-

fiəsini və torpaq haqqında isti, səmimi hisslərini bölüşür, həmçinin işğal altında inləyən torpaqlarımız, "şəhid olmuş" rayonlarımız haqqında onlarda müəyyən təsəvvür yaratmaqla onların dünyagörüşünə, duyğu və düşüncələrinə daxil olmağa çalışır. Eyni zamanda elə uşaq çağlarından onları intiqama, torpaq mücadiləsi, Vətənin azadlığı uğrunda səcdə etməyə çağırır:

**O çöllər, çəmənlər gör nələr, deyir?!**
**Əyil bu torpağa, səcdə qıl, əyil.**
**Allahın özü də Vətənsiz deyil,**
**Allahın yolu da Vətəndən keçir...**
**("Vətən")**

Yaxud "Ağlama, şəhid anası, ağlama" şerində yurd, müqəddəs bildiyi torpaq uğrunda ölməyi şərəf sayan müəllif qeyd edir:





**Vətənin bu çətin, ağır günündə,**
**Şərəflidir yurd yolunda ölüm də,**
**Baş əyirəm bu ölümün önündə,**
**İgid ölmür, igidə yas saxlama,**
**Ağlama, şəhid anası, ağlama!!!**

***Bu kitab haqqında çox söz demək olar. Bircə onu deyə bilərəm ki, "Ağla, Xocalım, ağla" kitabı istedadlı şair R.Nazimoğlunun uşaqlarla ilk "görüşü"dür. İnanıram ki, hər bir təhsil ocağında rənglərlə, səslərlə, ağılla, zəka ilə möcüzə yaradan həmin uşaqlar vaxt gələcək xoş məramlı missiyanın daşıyıcısı olan müəllifə minnətdar olacaqlar.***

**İsgəndər ETİBAR**
**şair**

# Müəllifdən

**Əziz oxucu!**

Bircə anlıq dayan. Əlindəki kitabı ötəri vərəqləyib kənara qoymağa tələsmə. Bu kiçik kitabda ağ vərəqlərə yüklənmiş bəyaz bir kədərə sən də şərik ol. Ötəri boylanma bu kədərə sarı. Bir günlük də olsa, bir saatlıq da olsa bu kədəri mənimlə birgə yaşamağa çalış. Çalış, və elə çalışqanlığınla da mənə təsəlli ol, ümid yerimə çevril.

Yaşadığımız dünyanın gözə görünən və görünməyən ab-havasını, həyatdakı gözəllikləri və bu gözəlliklərlə yanaşı eybəcərlikləri də əks etdirdiyim bu kitabı elə xatirinə bir nəfəsə oxuyaraq sona çatdırmağını da istəmirəm. Duyaraq oxu hər şeri. Bu şerlərdəki, sətirləri yaşayaraq oxu. Dünyanın etibarsızlığından, insanların əbədi yaşamamasından, Vətənin dərdi-sərindən tutmuş, xeyrlə-şərdən, kədərlə-sevincdən belə, hər nə istəsən var bu kitabda. Dünya öz dərd karvanını üstümə yeridəndə o karvanın önündə məğrur dayanmağa mənə bu kitabda





cəmləşdirdiyim şerlər kömək olub. Dəyərli dostlarımı, gələcəyimizçün gərək olan keyfiyyətli insanları itirəndə bu kitabdakı şerlər silib acı göz yaşlarımı. Vətənimizin başı üstünü qara buludlar alanda yenə də bu kitabdakı şerlər mənə dözüm, səbr verib. Və elə verdiyi bu dözüm və səbrlə də mübariz olmağa səsləyib məni. Ən nəhayət öz şəxsi həyatımda belə səadət yağışlarının damcılarından həzz alanda da, amansız kədər dalğalarının qoynunda çırpınanda da bu şerlər olub mənim imdad yerim. Pisliklərdən qoruyub, yaxşılıqlara gedən yollarıma nur saçıb bu kitabdakı şerlərim.

Mənim yaşantılarımı, hisslərimi, duyğularımı duymaq üçün bu kitabı oxumaq yetər. Çünki bu kitabda mənim duyğularım, hisslərim bir sözlə özümü dərk etdiyim gündən yaşadığım yaşantılarım cəmlənib. Elə bununçündə...

Salam, əziz dostum, xoş gördük səni,
Gəlmişəm halını soruşmaq üçün.
Acılı, şirinli xatirələrdən,
Olub keçənlərdən danışmaq üçün.

Gəlmişəm düşünüb, danışmaq üçün,
Hicranın yükünü qoşa çəkək biz.
Götürək aradan nifrəti, kini,
Dostluğu, sevgini başa çəkək biz.

Sənin dərdin mənimkidir, mənimdir,
Dərdimizi bölüşməyə gəlmişəm.
Sığallayıb, tumarlayıb qəmimi,
Sənin ilə görüşməyə gəlmişəm.

Həyata göz açıb gələn bəri,
Dərdlərinə bələnmişik dünyanın.
Yaxşısına, yamanına qarışıb,
Ələyində ələnmişik dünyanın.

Çox görmüşük, götürmüşük, hər şeyin,
Yaxşıları yamanından az olub.
Ərənləri az-az dəyir gözümə,
Bu dünyanın kişiləri azalıb.





Oğul var ki, anasının qatili,
Ata var ki, oğul qoyur məzara.
Qardaş var ki, pis bacının üzündən,
Düçar olub sağalmayan azara.

Vaxtında biz oyatmadıq elləri,
Parça-parça, zərrə-zərrə bölündük.
Qartal idik zirvələri tərk edib,
Duman olub dərələrdə süründük.

Dərd qatımız gündən-günə çoxaldı,
Bu dərdin yükünü daşımaq olmur.
Olumla ölümün arasındayıq,
Ölmək istəmirik, yaşamaq olmur...

## Vətən

Doğrasan kəsilməz, atsan atılmaz,
Çörəyə qatılmaz suya qatılmaz,
Düşmənə əyilməz, yada satılmaz,
Vətən candan keçir, bədəndən keçir.

Qəlbinə girməsən keçmə yanından,
Qopsa çıxammazsan bir tufanından.
Vətən oğulların qızıl qanından,
Xanım-xatınların südündən keçir.

O çöllər, çəmənlər gör nələr deyir?!
Əyil bu torpağa səcdə qıl, əyil.
Allahın özü də Vətənsiz deyil,
Allahın yolu da Vətəndən keçir...

## Ağla, Xocalım oy, ağla

Dağ çəkilib dağlarına,
Boran düşüb bağlarına,
Boylan xoşbəxt çağlarına,
Ağla, Xocalım oy, ağla.

Əsirlikdə qalanın var,
Saçlarını yolanın var,
Gözü yolda qalanın var,
Ağla, Xocalım oy, ağla.





Sahibsizdir obaların,
Tüstülənmir sobaların,
Goru yanır babaların,
Ağla, Xocalım oy, ağla.

Yağı düşmən solun, sağın,
Viran qalıb bağçan, bağın,
İnildəyir torpaqların,
Ağla, Xocalım oy, ağla.

Qəmlə ötür ayın, ilin,
Əllərimə çatmır əlin.
Sovrulubdur göyə külün,
Ağla, Xocalım oy, ağla.

Dumanlanıbdı yolların,
Qandalanıbdı qolların,
Əsir düşüb oğulların,
Ağla, Xocalım oy, ağla.

Sinən üstə şum çəkilib,
Ürəyinə dərd əkilib,
Həsrətdən belin bükülüb,
Ağla, Xocalım oy, ağla.

Zirvələrin çənsiz qalıb,
Zəmilərin dənsiz qalıb.
Məzarların dinsiz qalıb,
Ağla, Xocalım oy, ağla.

Körpələrin nizələnib,
İgidlərin güllələnib,
Yurd yerinə kül ələnib,
Ağla, Xocalım oy, ağla.

Qara geyib dağın, dərən,
Ah naləni varmı görən,
Övladların pərən-pərən,
Ağla, Xocalım oy, ağla.

Düşmənlərin ölməyincə,
Gedənlərin gəlməyincə,
Raqif səni görməyincə,
Ağla, Xocalım oy, ağla.





# Dinlə, Anam Azərbaycan

Dinlə, anam - Azərbaycan!
Sən oddan doğulmusan.
Zülmətləri yara-yara,
Ədalətdən yoğrulmusan.

Bərəkətli dağın-düzün,
Tükənməyən sərvətindir.
Torpağının hər, qarışı,
Toxunulmaz qeyrətindir.

Quş qonmayan qayaların,
Başı qarlı, dağların var.
Qəlb oxşayan ormanların,
Gül-çiçəkli bağların var.

Oğulların dəliqanlı,
Gözəllərin ismət payın.
Mərdlik, dözüm, qürur, vüqar,
Haqqdan gələn qismət payın.

Sən Babəklər, Cavanşirlər,
Koroğlular vətənisən.
Çinar boylu, şir ürəkli,
Nər oğullar vətənisən.

Nəsimilər, Xəqanilər,
Nizamilər anasısan.
Qorxu bilməz bir millətin,
Tükənməyən qalasısan.

Nigarların at belində,
Həcərlərin şeşbər atır.
Yaxşı qoru torpağını,
Orda oğlun, qızın yatır.

Dinlə məni, Azərbaycan!
Sən düşmənə göz dağısan.
Azadlığın, ədalətin,
Dalğalanan bayrağısan.





# Ağlama, şəhid anası, ağlama

Sənin dərdin bütün elin dərdidi,
Bülbülün dərdidi, gülün dərdidi.
Dərdin ən ağrı ölüm dərdidi,
Dağ üstündən sinəmizi dağlama,
Ağlama, şəhid anası, ağlama.

Öldürülən, yaralanan, itən var,
Daş üstündə çiçək olub bitən var.
Torpaq üstə şəhid varsa, vətən var!!!
Kür kimi hönkürüb, qəmlə çağlama,
Ağlama, şəhid anası, ağlama.

Türk anası dərdin dağlar əridir,
İnadını, istəyini yeridir.
İndi səbr, indi dözüm yeridir,
Yasdan libas geyib qara bağlama,
Ağlama, şəhid anası, ağlama



F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV № 29159

Vətənin bu çətin, ağır günündə,
Şərəflidir yurd yolunda ölüm də.
Baş əyirəm bu ölümün önündə,
İgid ölmür, igidə yas saxlama,
Ağlama, şəhid anası, ağlama!!!

## Şəhidlər

Qara bulud ellərimi sıxanda,
Güllə, mərmi başımıza çaxanda,
Haqqımızı haqsızlıqlar boğanda,
Nərə çəkib şirə döndü şəhidlər.

İnadından, inamından enmədi,
Məşəl kimi alışdıqca sönmədi,
Nur misallı Boz qurdumdan dönmədi,
Sönəndə nur kimi söndü şəhidlər.

Üçrəngli bayrağım başı üstündə,
Torpağı üstündə, daşı üstündə,
Tarix təzələndi yaşı üstündə,
Babək, Cavanşir tək dindi şəhidlər.





Ellərin qəsdinə duranda yağı,
Söndü şəhidlərin ömür çırağı,
Düşdü köksümüzə Alosman dağı,
Torpağa nur kimi endi şəhidlər.

Yenilməz dərdimiz, dərd-sərimizdi,
Bizim özümüzdü, hər birimizdi,
Müqəddəs pirimiz, and yerimizdi,
İnam yerimizdi indi şəhidlər.

Raqif Nazimoğlu, batma sən yasa,
Vətən yaşayarmı şəhid olmasa,
Bu günün özündən kam almadısa,
Azad sabahlara yöndü şəhidlər.

## Ən uca kürsü

Atalar dizin-dizin
sürünərmiş dünyada,
Göynəyərmiş analar
göyüm-göyüm, ay Allah!
Günəş qara örpəyə

bürünərmiş dünyada,
Sənin belə qəsdinə
mən nə deyim, ay Allah?!
Göynəyirəm hələ də
göyüm-göyüm, ay Allah!
Gülüstanlar gözümdə
qana boyanmış niyə?
Ürəyimdə qəm dağı
ərşə dayanmış niyə?
Qonşum quduz canavar
vaxtsız oyanmış niyə?
Batinində iblisin
hay-harayı varıymış,
İqamətgah yerində
qan sarayı varıymış.
Gül-çiçək tonqalına
dönən xiyabanlarım

Ağır-ağır tankların
atəşindən solubdur.
Vətən üçün, el üçün
qurban gedən canlarım,
Yanıb səməndər kimi





yurda şəhid olubdur.
Əsrin son divanına
ölçü-mizan qalıbdı.
Haray çəkib can dedim
vaxtsız gedən nərlərə,
Dünyanı qurban dedim
cəngə səfərbərlərə,
Cavanşir, Babək kimi,
Koroğlu tək ərlərə.
Ağladıqca göz yaşım
mərmiləşən sel oldu,
Şimşəklərim çaxdıqca
Düşmən gözü ovuldu.
Şəhid məzarlarına
qərənfillər döşənib.
Min bir rəhmət dedilər
İgidlərin ruhuna.
Aylar-illər döşənib
tarixin dərgahına,

Şahid oldu türklərin
Amanına, ahına,
Min bir rəhmət dedilər

İgidlərin ruhuna.
Elə igidlərin ki,
Düşmənlərin önündə
Şax dayanıb, şax durub.
Alovların, odların
İşığını, nurunu
Canımıza hopdurub.
Elə igidlərin ki,
Ölümüylə Vətənin
Bakirə qüdrətini
Tarixlərə həkk edib,
İmansız düşmənlərin,
İnamsız düşmənlərin
Anasını ağladıb,
Dayağını sındırıb,
Qibləsini hürküdüb!
Azalan cavanlarım,
Azalan çinarların
Sırasına dönübdür.
Şəhidlərin çox olan
Məzarları dünyanın,





Turan adlı sağalmaz
Yarasına dönübdür.
Şəhidlər xiyabanı!
Uyuyan şəhidlərin
İncə, zərif, pak ruhu,
Əsrə ibrət dərsidir!
Şəhidlər xiyabanı!
Planetdə ən böyük,
Ən müqəddəs, ən uca
İbrətamiz kürsüdür!

## Getmə, Şuşa gəlini

Çıxma Şuşa yoluna,
Şuşa dəli-doludu.
Şuşa yolu qorxulu,
Şuşa ölüm yoludu.

Çıxma Şuşa yoluna,
Şuşa yolu daşlıdı.
Getmə, fəryad qoparar,
Şuşa gözü yaşlıdı.

Şuşaya qəfəs düşüb,
Yan-yörəsi bağlıdı.
Qapıları kilidli,
Pəncərəsi bağlıdı.

Diksindirmə körpəni,
Çıxma yola, amandı.
Hava hələ bulanıq,
Yollar hələ dumandı.

Dumanların qatarı,
Bu yollarda pozuldu.
Xalqın qətlinə fərman,
Bu yollarda yazıldı.

Bu yollarda, ay bacım,
Xocalının qanı var.
Malıbəyli, Daşaltı,
Ağdərə fəğanı var.





Çıxma Şuşa yoluna,
Zənnin aldadar səni.
Hələ özün bir yana,
İtirərsən körpəni...

Getmə, udub Şuşanı,
Qorxuludu gecələr.
İslanıb kiprikləri,
Yuxuludu gecələr.

Gözlə, bəxtin səhəri,
Bir gün açılmalıdır.
Ömrümüzə, ay bacım,
Qələbə məşəlinin
Nuru saçılmalıdır.
Gözlə, gözlə, ay gəlin...

Şuşanın yollarında,
Hələ gedir oğullar.
Özünü öldürməyə,
Ölümüylə Şuşanın,
Gözünü güldürməyə.

# Azərbaycan olmalıyıq

Ürək indi dərd çırağım,
Sızıldayır göyüm-göyüm.
Səlüb gedib bağçam-bağım,
Qan ağlayır, yerim, göyüm.

Tüstüsüz bir ocaq yanır,
Zaman-zaman içimizdə.
Kainatın silqəti var,
Bizim ömür köçümüzdə.

Körpə, fidan balaları,
Qara məzar udur vaxtsız.
Allah verir bəlaları,
Dözür buna haqsız-haqsız.

Tanrı dərdə dözür niyə
Divan tutmur nadanları.
Zalım sığmır yerə, göyə,
Bais olur çox qanlara.





Hər yer matəm, yas yeridir,
Ata oğul harayında.
Qalıb sanki yurdum-yuvam,
Dünyanın qan sarayında.

Sinəmizdə başı qarlı,
Bir dağ vardır - vətən dağı.
Dağ başından yığılmayır,
Buludların əl-ayağı.

Qara-qara buludlardan,
Şimşək çaxır ürəyimə.
Yağış yağır, dolu düşür,
Süfrəm üstə çörəyimə.

Qara bulud yağı düşmən,
Gecə-gündüz qəsdimdədir.
Bilirəm ki, haqqın ancaq,
Vuran əli üstümdədir.

Birləşib bir yumruq kimi,
Qanımızı almalıyıq.
Hər birimiz vətən boyda,
Azərbaycan olmalıyıq!

# Azərbaycan əsgəri

(Marş)

*Sözləri: Raqif Nazimoğlunun*
*Musiqisi: Novruz Aydəmirovun*

Addımla, addımların,
Uğurlu, mətin olsun.
Mərdlik, dözüm, dəyanət,
Tale qismətin olsun,
Azərbaycan əsgəri!

Dalğalansın əlində,
Qoy üç rəngli bayrağın,
Cəbhədən qələbəylə,
Gəlsin səsin, sorağın.
Azərbaycan əsgəri!

Aman vermə düşmənə,
Səngərində ayiq ol.
And iç ulu günəşə,
Türk adına layiq ol,





Azərbaycan əsgəri!
Şah damarın Qarabağ!
Gözlərindi Naxçıvan!
Təpərli dizlərindi
Şəki, Şirvan, Mil, Muğan!
Azərbaycan əsgəri!

Hər qarış torpağını,
Qru bəbəyin kimi.
Bütöv saxla Vətəni,
Bütöv ürəyin kimi,
Azərbaycan əsgəri!

## Əsgər gələndə
## (Nəğmə)

Ana gülə-gülə ağlayır o gün,
Samavar özünü dağlayır o gün,
Bulaqlar da rahat çağlayır o gün,
Döyüşdən qayıdıb əsgər gələndə.

Bacılar sarılar qardaş boynuna,
El-oba yığılar Babək toyuna,
Bəzənib nənələr girər oyuna,
Döyüşdən qayıdıb əsgər gələndə.

Balacalar ora-bura teylənər,
Yoldan keçən baxıb yolda əylənər,
Qonşu qızı çəpər üstən boylanar,
Döyüşdən qayıdıb əsgər gələndə.

Ataların səbri daha gen olar,
Qonşular da ona baxıb şən olar,
Bu dünyada ən müqəddəs gün olar,
Döyüşdən qayıdıb əsgər gələndə.





## Torpağımı, yad əllərə verməzəm

Düşmən üstə yeriyərəm nər kimi,
Şaqqalaram para-para şir kimi.
Sinə gərib dayanaram ər kimi,
Torpağımı, yad əllərə verməzəm.

Mərmiləri köksüm ilə saxlaram,
Tanklarını baxışımla oxlaram.
Minalanmış səngərləri adlaram,
Torpağımı, yad əllərə verməzəm.

İldırımdan libasımı tikərəm,
Gözlərimdən qrad, mərmi tökərəm.
Qollarımı kəsib, hasar çəkərəm,
Torpağımı, yad əllərə verməzəm.

Tab gətirib hər əzaba dözərəm,
Haqq dalınca diyar-diyar gəzərəm.
Bu dünyanın boğazını üzərəm,
Torpağımı, yad əllərə vermərəm.

Görsəm ki, əlacım kəsilib daha,
Diz çökərəm, əl açaram Allaha.
Ümidlə, inamla baxıb sabaha,
Torpağımı, yad əllərə vermərəm.

## Ay Vətən oğlu

Hələ də gec deyil, kökünü öyrən,
Özünü çaşdırma, ay Vətən oğlu.
Tükü tükdən seçir indiki dövran,
Ara qarışdırma, ay Vətən oğlu.

Ev evə sığışmaz! Bu düzdür, ancaq,
Yurddur hamımıza doğma bir ocaq.
Vətəndə məslək var, eldə qanacaq,
Elə qarşı durma, ay Vətən oğlu.





Sənə kök yanğısı gəlməsin asan,
Ruhun necədirsə özün də o san.
Ürək yandırmasan, can yandırmasan,
Tarixə baş vurma, ay Vətən oğlu
Elə qarşı durma, ay Vətən oğlu.

Bir gün yaşamadıq güman içində,
Yaşadıq ən çətin zaman içində,
Bir dinə söykənən Quran içində,
Yalan araşdırma, ay Vətən oğlu
Elə qarşı durma, ay Vətən oğlu.

Lap çoxdan bələdəm qanun-qaydana,
Sən papış tikənsən çoxdan şeytana.
Mənim əvəzimə çəkib meydana,
Yadı danışdırma, ay Vətən oğlu
Elə qarşı durma, ay Vətən oğlu.

Gahdan dirilirsən, gahdan ölürsən,
Gahdan ağlayırsan, gahdan gülürsən,
Mətləbin üstünə çox gec gəlirsən,
Səbrim ki, böykdür, özün bilirsən,

Səbrimi daşdırma, ay Vətən oğlu
Elə qarşı durma, ay Vətən oğlu.

Araz-Kür qolundan qopubsan axı,
Canıma qardaş tək hopubsan axı.
Özünü sən məndə tapıbsan axı,
Gəl aman günüdür yadı-yalağı,
Mənlə qarışdırma, ay Vətən oğlu.

Səhvin var, səhvini at, tulla getsin,
Kim istər qoy indi yad yolla getsin.
İndi Vətən gərək uğurla getsin,
Artıq nə söhbət var, nağılla getsin,
Nahaq baş sındırma, ay Vətən oğlu
Elə qarşı durma, ay Vətən oğlu.

Yaylaq da, aran da məndədir indi,
İran da, Turan da məndədir indi.
İslam da, Quran da məndədir indi,
Halal din, boş durma, ay Vətən oğlu
Elə qarşı durma, ay Vətən oğlu.





Elə nanəcib var kökünə söyür,
Kökünə söyənlər başına döyür.
Eşit Nazimoğlun, eşit nə deyir.
Nə sənə, nə elə gətirər xeyir,
Belə qarşıdurma, ay Vətən oğlu
Elə qarşı durma, ay Vətən oğlu.

## Dəhşət

**1990-cı ilin qanlı yanvar faciəsinə həsr edirəm**

Ay qələm, əlimdə sınaydın səni,
Məni dərdə saldın, ələmə saldın.
Ay ürək, od tutub yanaydın səni,
Ağrını, acını qələmə saldın.

Qurudu gözümdə fəlakət yaşı,
Dil dinmək istədi, əl dayan dedi.
Mərmilər qaraltdı torpağı, daşı,
Bala oda düşdü, ana can dedi.

Diksinib əlimi çəkdim kağızdan,
Ağrılar canımda tufan eylədi.
Niyə yarımadı oğuldan, qızdan,
Əsrimiz Bakıya divan eylədi.

Körpə balaların yandım halına,
Bir ana laylası "şair, yaz" dedi.
Bürünüb Bakının qara şalına,
Azəri gözəli, "şair, yaz" dedi.
Yaz ki, nahaq yerə çox qanlar axıb,
Bakının gövdəsi çapma-çapmadı.
On yaşlı Şəmsiyyə məktəbdən çıxıb,
Ata-anasına gəlib çatmadı.

Bir ev başdan-başa tarimar oldu,
Qaraldı ocağı, söndü işığı.
Bir körpə torpaqda döşəli qaldı,
Əlindən sıçradı xörək qaşığı.

İki-üç yaşında körpə bir səvi...
Bu körpə, dünyadan yarımalıydı.
Hələ ayaqları yeni yer tutub,
Hələ vətən onu qorumalıydı.





Ömür yollarının yanğılarından,
Şirin yuxuları dadmalıydı o.
Keçib uşağlığın nağıllarından,
Cavanlıq çağına çatmalıydı o.

Ata baxışından sevinc götürüb,
Ana sifətində nur görməliydi.
Boya-başa çatıb gözəl bir qıza,
Sevən ürəyini göndərməliydi.

...Ağlamaq istədi, çıxmadı səsi...
Bir damla yaş axdı yanaqlarından.
Dağıtdı köksünü düşmən gülləsi,
Süd ətri getməmiş dodaqlarından.
Qara gözlərinə çökdü qaranlıq,
Yaşadı bir anlıq, söndü bir anlıq?

O Vətən gəlini o bədbəxt ana,
Sarılmaq istədi öz balasına.
Mərmilər onu da sərdi torpağa,
Fəlakət yaratdı göz baxa-baxa...

Mərmilər oynayan viranəlikdə,
Bir dərviş görünür əlində tüfəng.
Bir bayquş ulayır uzaq çöllükdə,
Bir quru səhrada vurnuxur külək.

Vəhşilər səs-küydən mülayimləşir,
İlanlar girməyə deşik axtarır.
"Dalanlar" adlayıb, "küçələr" keçib,
Dərviş körpə gəzir, beşik axtarır.

Yer necə sakitdi, göy necə sakit,
Sanki, nə qatil var, nə də ki, qətl.
Bir ölü ruhuna qatılıb sükut,
Dərviş yerindəcə qalıb məəttəl.

"Heç rəhmin yox imiş a tanrım, sənin"
Deyib yanğısını közərdir dərviş.
Mərmi parçalamış körpə səvinin,
Yönünü qibləyə düzəldir dərviş.





Tərli saçlarını sığala tutub,
Yaralı canından öpür körpənin.
O göz yaşlarını laylaya qatıb,
Çiçək tək üstünə səpir körpənin.

Axır yanağından gözünün yaşı,
Qara saqqalında mirvariləşir.
Fəlakət görünür hər addımbaşı,
Büdrəyir ayağı, daşa ilişir.

Bir himə bənd imiş o elə bil ki,
Bütün var gücüylə ağlayır yazıq.
Əlini uzadıb qarşısındakı,
Meyidin gözünü bağlayır yazıq.

Diksinir Bakının gecələrindən,
Dönür bir titrəyən yarpağa dərviş.
Tüfəngə söykənib qalxır yerindən,
Baxır qan ləkəli torpağa dərviş...

Arıq bədənində üşüyür qanı,
Qəlbi sözə baxmır, pozulur halı.
Çiynindən sürüşüb düşən əbanı,
Bir zahı gəlinin üstünə salır.

Baş-ayaq sərilmiş o meyidlərə,
Baxdıqca dərvişin donur varlığı.
Yer göyə qarışır, göydə ki, yerə,
Sönür bir ölkənin bəxtiyarlığı.

Hardasa inləyib yanır bir setar,
Ahını göylərə bülənd eyləyir.
Qərib pərdələrdən qopan o xallar,
Özünü buluda kəmənd eyləyir.

Ağlayır bulud da, dil deyir göy də,
Yer də ağır-ağır gözünü sıxır.
Bir dəli şimşək də şığıyıb göydən,
Torpağın üstündə üsyana çıxır.





Yetişib dayanır yol ayrıcında,
Sağamı, solamı burulsun? Necə?
Matəmə qərq olmuş yollar boyunca,
Dərvişə qoşulub ağlayır gecə.

Sellənir, sulanır gözlərində çay,
Dərviş şimşək kimi çaxır yerində.
Gizlənir qorxudan buludlarda ay,
Yarılır dodağı gecələrin də...

# Kədər himni

Qəm-kədərlə yüklənəcək ürəyi,
Qara gözü dolacaqdır dünyanın.
Xatirində qalacaqdı əbədi,
Zalımların vaxtsız qopan tufanı
Oradur,
Liditse,
Babi Yar,
Xatın,

Xocalı,
Daşaltı,
Bakı qırğını.

Haray düşdü, fəryad düşdü cahana,
Qan uddurdu neçə qoca, cavana,
Bir ləkədir bizim əsrə, zamana,
Zalımların zülmü, cəbri divanı
Oradur,
Liditse,
Babi Yar,
Xatın,
Xocalı,
Daşaltı,
Bakı qırğını.

Vətən eşqi səngərlərdən başlayır,
Düşmən topu səngərləri daşlayır.
Vaxtsız ölüm igidləri xoşlayır,
Səpir qəlbimizə həsrət toxumu
Oradur,
Liditse,
Babi Yar,
Xatın,





Xocalı,
Daşaltı,
Bakı qırğını.

Ana görüb, Vətən görüb yağını,
Bələkdəki körpə çəkib dağını.
Can sinirib bütün qara-qorxunu,
Yenə əsrin döndərəmməz çarxını
Oradur,
Liditse,
Babi Yar,
Xatın,
Xocalı,
Daşaltı,
Bakı qırğını.

# Millətimi qoru, dünya

Yer də, göy də, qan ağlayır,
Ürək yanır, can ağrayır,
Ana məzar qucaqlayır.
İnsafa gəl barı, dünya
Millətimi qoru, dünya.

Yurdumuzu talan etdi,
Düşmənlərim kama yetdi,
Ərənlərim nakam getdi,
Qurma bizə toru, dünya
Millətimi qoru, dünya.

Düz danışan düzdə qalıb,
Əhdi-peyman sözdə qalıb,
Haqq-ədalət üzdə qalıb
Ölçün hanı, qarı dünya?
Millətimi qoru, dünya.





Dərd çəkirəm birəm-birəm,
Gecə-gündüz yaş tökürəm,
Vətəndən sonra neylərəm
Bu dövləti, varı, dünya?!
Şövkətimi qoru, dünya.

Türk oğluyam, can uyarı,
Seçmişəm mən yaz baharı.
Əllərimlə tutub xarı,
Çəkmə mənə sarı, dünya
İzzətimi qoru, dünya.

Zaman-zaman qurdlaşmışam,
Keçilməz sədlər aşmışam,
Obalanıb, yurdlaşmışam.
Ol əhdimin yarı, dünya
Qeyrətimi qoru, dünya
Millətimi qoru, dünya.

## Gec idi artıq

37-də
Cavidin göz işığını,
Cavadın can yanğısını,
Müşviqin qəlb odunu
Oğurladılar,
Qapdılar.

Zaman da,
Zamana baxan
Dodağı yırtıq adamlar da,
Baxıb güldü
Sırtıq sırtıq.

37-də
Cavidlərdən,
Cavadlardan
Müşviqlərdən yadigar qalan çağaları,
Bələyində çapdılar.





55-də
37-ci ilin
İşıq, qəlb və can oğrularını
Tapdılar.
Gec idi artıq.
Cavidin gözləri sönmüşdü,
Cavadın ürəyi,
Müşviq fəryadı.
Könlümüzdən əsirdi
əsəbi-əsəbi.
İnanmaq olmurdu ki,
Necə yan ötdü bizdən
Yerlərin,
Göylərin qəzəbi?!
55-də
Torpaqda itib-batmışdı
Bələyində çapılan
çağaların qəbri.
Çağalı ataların,
Atalı çağaların
Fəryadına
Dözə bilməmişdi.

Ana torpağın səbri...
55-də
Çözələndi günahlar,
Zaman
Qalib sözünü dedi
Açıq-aşkar -
On səkkiz ildən sonra
Gələn 55
Ümidimizdə,
Yandırsa da od ocaq,
Təsəllimiz ayrıldı.
Təskinlik tapdı
Ürəyimiz ancaq...

Doğma sandığımız adamlar
Yaşamışdı.
Fironluq havasında
Yel əsib,
Yengələr oynamışdı
Doğmaların yuvasında.

37-ci ilin şimşəkləri
55-də çaxmışdı.





Ölkəmizin qafasında...
İtənlərimiz üzə çıxdı
Ölənlərimiz sayıldı,
Cavidin də,
Cavadın da,
Müşviqin də,

Bələyində çapılan
çağaların da,
Heykəlləri qoyuldu...
Dodağı yırtıqların
Gözünü yırtdıq.
Gec idi artıq
Gec idi artıq...

## Ana

Üç cəhdim var bu dünyada,
Vətən, Torpaq, bir də Ana.
Vətən açıq, Torpaq açıq,
Hələ bağlı sirdi Ana.

Xəzinələrdən bahadı,
Bir iştahası dühadı.
Deyərəmmi zər-zibadı,
Cavahirdi, dürdü, Ana.

Əzab çəkər dönə-dönə,
Ülfətindən dönməz yenə.
Baş biləndi elə-günə,
Hər xeyirdə, şərdə Ana.





## Üzüm necə gülsün

Qara geyimində torpaq qan istər,
Nəfsini boğammır, növcavan istər.
Gülüstan yerinə zimistan istər,
Üzüm necə gülsün, atam balası.

Səsimə hay verən tapılmır indi,
Sevinc ürəyimə qapılmır indi.
Düşmənin kürəyi çapılmır indi,
Üzüm necə gülsün, atam balası.

Nalədir, fəryaddır söhbətim, sözüm,
Misralar içində dərd düzüm-düzüm.
Bilinmir hələ də astarım, üzüm,
Üzüm necə gülsün, atam balası.

Qəsd odunda alışanda Salatın,
Ən böyük tufanı qopdu həyatın.
Qibləsi bilinmir bu kainatın,
Üzüm necə gülsün, atam balası.

Vətən yasa batıb illət içində,
Fəlakət içində, zillət içində,
Neçə üzlü gördüm millət içində,
Üzüm necə gülsün, atam balası.

Şərafətim, ləyaqətim, ismətim,
Həlak olan Məhəmmədim, İsmətim.
Budursa taledən gələn qismətim,
Üzüm necə gülsün, atam balası.

Özümüzdən özümüzə ziyan var,
Düşmənlərin hiyləsinə uyan var.
Sağalmayıb ürəyimdə yaralar,
Üzüm necə gülsün, atam balası.





**Mündəricat**

Ön söz ........ 4
Müəllifdən ........ 8
Vətən ........ 11
Ağla, Xocalım, oy ağla ........ 12
Dinlə, anam Azərbaycan ........ 15
Ağlama, şəhid anası, ağlama! ........ 17
Şəhidlər ........ 18
Ən uca kürsü ........ 19
Getmə, Şuşa gəlini ........ 23
Azərbaycan olmalıyıq ........ 26
Azərbaycan əsgəri ........ 28
Əsgər gələndə ........ 30
Torpağımı yad əllərə verməriəm ........ 31
Ay vətən oğlu ........ 32
Dəhşət ........ 35
Kədər himni ........ 41
Millətimi qoru, dünya ........ 44
Gec idi artıq ........ 46
Ana ........ 50
Üzüm necə gülsün ........ 51

Nəşriyyatın direktoru **Ə.Sayılov**

**Raqif Nazimoğlu "Ağla, Xocalım, ağla" (şerlər)**
**Bakı, "Araz" nəşriyyatı 2006.**

**Redaktor:** **Fərqanə Elnur**
**Bədii rəhbər:** **Təranə Əzimqızı**
**Texniki redaktor:** **Vüsal İlyasoğlu**
**Kompüter tərtibatçısı** **Niyazi Meydanoğlu**
**Korrektor:** **Samirə Babayeva**

***Yığılmağa verilmişdir: 15. 05. 2006***
***Çapa imzalanmışdır: 25. 04. 2006***
***Kağız formatı: 70x100 1/32***
***Şərti çap vərəqi: 3***
***Uçot nəşr vərəqi: 2.5***
***Sayı 200***
***Sifariş 34***
***Qiymətı müqavilə ilə***

*"Araz" nəşriyyatının mətbəəsində çap olunmuşdur.*



**Raqif Nazimoğlu**

01 may 1957-c ildə Ağsu rayonunun Xasıdərə kəndində anadan olub.

İxtisasca filaloq-jurnalist və hüquqşünasdır.

Azərbaycan Müstəqil Mətbuat və İnformasiya Şurasının sədri, Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, «İti qələm» Respublika Ədəbi Birliyinin sədri, «Paklıq» hüquq qəzetinin baş redaktoru, 26 kitab müəllifidir.

Yaradıcılığı «Qızıl Qələm», «Həsən Bəy Zərdabi», «Məmməd Araz», «Kamal» və «Araz» Ali Ədəbi mükafatları ilə mükafatlandırılıb.